## ATİB İdarə Heyətinin sədri Ahmet Erentokun
## ÇIXIŞI

**Türkiyə Azərbaycan İş Şurasının iclası, 26 iyun 2007-ci il, İstanbul**

**Hörmətli sədr,**
**Hörmətli Forum iştirakçıları,**

Müstəqilliyi ilk dəfə Türkiyə tərəfindən tanınan Azərbaycanın son dövrlərdə yüksək iqtisadi artım templəri nümayiş etdirməsi bizi hədsiz dərəcədə sevindirir. Çox sevinirik ki, bu iqtisadi artımın əldə edilməsində Azərbaycanda fəaliyyət göstərən türk iş adamlarının da böyük rolu olub. Azərbaycanın ən çətin dövrlərində bu ölkəyə gələn türk iş adamları ötən müddət ərzində Azərbaycan iqtisadiyyatının inkişafı istiqamətində önəmli nailiyyətlərə imza atmışlar. Heç şübhəsiz ki, 1991-ci ildə qurulan Türkiyə Azərbaycan İş Şurasının da bunda mühüm əməyi olmuşdur.

Bu gün biz Türkiyə ilə Azərbaycan arasında iqtisadi və sosial münasibətlərin və strateji ortaqlıqların inkişafının mühüm mərhələsindəyik. Ötən il həm Azərbaycan və Türkiyə üçün, həm də bütövlükdə region üçün iki mühüm tarixi hadisə baş vermişdir. Belə ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşmüş, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi də başa çatdırılmışdır. Bu layihələr Azərbaycan üçün, Azərbaycan - Türkiyə əlaqələri üçün, region üçün və dünya üçün çox böyük əhəmiyyətə malikdir. Yaxın zamanlarda Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə ölkələrimiz arasındakı strateji müttəfiqlik daha da güclənəcəkdir.

Türkiyə-Azərbaycan münasibətlərini qardaşlıq, dostluq prinsipləri birləşdirir və hazırda siyasi və mədəni sahələrdə bu münasibətlər ən yüksək zirvədədir. Dəfələrlə qeyd edildiyi kimi, Azərbaycan və Türkiyə arasında əlaqələrin dünyada ikinci bir analoqu yoxdur. Lakin, eyni zamanda, təəssüflə qeyd etməliyəm ki, iki ölkə arasında iqtisadi münasibətlərin inkişaf səviyyəsi siyasi və mədəni əlaqələrin inkişaf səviyyəsindən geridə qalır.

Sözlərimi rəqəmlərlə sübut etməyə çalışacam. Türkiyənin Azərbaycanla 1996-cı il üzrə xarici ticarət dövriyyəsinin həcmini 2006-cı il üzrə analoji göstərici ilə müqayisə etdikdə ümumilikdə 70%-ə yaxın artım olduğunu görürük ki, bu da şübhəsiz ki, bizi sevindirməyə bilməz. Lakin, eyni zamanda analoji dövrdə Türkiyənin Azərbaycanın xarici ticarət dövriyyəsindəki paylarını müqayisə etsək görərik ki, Türkiyə 1996-cı ildə Azərbaycanın xarici ticarət dövriyyəsində 29% paya malik idisə, 2006-cı ilin yekunlarına görə, bu göstərici 6,6% təşkil edir. Bu ondan xəbər verir ki, Türkiyə və Azərbaycan arasındakı iqtisadi əlaqələrin inkişaf tempi Azərbaycanın ümumi iqtisadi inkişaf tempindən, o cümlədən xarici

ticarətinin artım tempindən geri qalır. Hər iki ölkənin rəhbərliyi ticarət dövriyyəsini 1 milyard dollara çatdırmağı və daha da artırmağı qarşıya məqsəd qoymuşdur. Cari ildə bu hədəfə nail olunacağı, sonrakı dövrdə isə artımın daha yüksək olacağı gözlənilir. Lakin, bu artım tempi ən yaxşı halda Türkiyəyə Azərbaycanın xarici ticarətində malik olduğu hazırkı mövqeləri qoruyub saxlamağa imkan verəcəkdir.

Bununla yanaşı, qeyd etməliyik ki, Türkiyə Azərbaycanın qeyri-neft sektoruna ən çox investisiya yatıran ölkə olaraq qalmaqdadır. Türk iş adamları tərəfindən Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna qoyulmuş investisiyaların həcmi artıq 2 milyard ABŞ dollarını ötmüşdür və getdikcə artmaqdadır. Lakin, onu da vurğulamalıyıq ki, Türkiyə son illərdə bu istiqamət üzrə də mövqelərini itirməkdədir.

Azərbaycan Türkiyə İş Adamları Birliyi iqtisadiyyatın bütün sahələrində iş adamlarının əməkdaşlığının inkişaf etdirilməsində maraqlıdır. ATİB-in qarşısına qoyduğu əsas məqsəd Türkiyə və Azərbaycanın regionda və dünyada nüfuzunun daha da artırılmasıdır.

Bu istiqamətdə səylərimizi daha da gücləndirmək məqsədilə 2007-2008-ci illərdə üç ölkəyə – Rusiya, ABŞ və Avropa Birliyinin əsas strukturlarının yerləşdiyi Belçikaya işgüzar səfərlər nəzərdə tutmuşuq. Səfərlər zamanı bu ölkələrin iş adamlarının, həmçinin Azərbaycan və Türkiyə iş adamlarının iştirak etdiyi biznes forumun, həmin ölkələrin aparıcı universitetlərindən birində elmi-praktiki konfransın, Türkiyə və Azərbaycanın həmin ölkələrdəki diasporlarının birgə iclasının təşkil edilməsi planlaşdırılır.

Biz ATİB olaraq, ümid edirik ki, təşkil edilən tədbirlər nəticəsində Azərbaycan və Türkiyənin dünyanın bu üç böyük güc mərkəzi ilə əlaqələrini daha da aktivləşdirməyə və bununla da hər iki ölkənin bölgədə nüfuzunun artmasına töhfə verəcəyik. Əminik ki, bu tədbirlər təkcə iki ölkənin iqtisadi potensialının reallaşdırılması baxımından deyil, eyni zamanda, bütövlükdə regionda iqtisadi rifahın təmin edilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

Məsələn, Rusiyada təşkil edilməsi nəzərdə tutulan tədbirlərin təşkil edilməsi nəticəsində Türkiyə – Rusiya hökumətlərarası komissiyasının 2002-ci ildə keçirilən iclasında bu iki ölkənin üçüncü bir ölkədə ortaq layihə reallaşdırşaları barədə qərarlarının həyata keçirilməsi üçün daha müvafiq şərait yaranacağına və Rusiya və Türkiyənin belə bir layihəni məhz Azərbaycanda həyata keçirəcəklərinə inanırıq.

ATIB qurulduğu 2004-cü ildən etibarən təşəbbüsçüsü olduğu bir sıra layihələrin reallaşması sadəcə Türkiyə və Azərbaycan arasındakı münasibətlərin

deyil, eyni zamanda iki ölkənin birgə regional fəaliyyətinin güclənməsinə də imkan yaratmışdır.

2004-cü ildən etibarən ATIB olaraq iştirak etdiyimiz hər tədbirdə Avrasiya bölgəsinin iqtisadi potensialının müxtəlif səviyyələrdə dəyərləndirilməsində biz iş adamlarının öhdəsinə düşən mühüm vəzifələrin olduğunu, xüsusilə də bölgənin ən vacib oyunçuları olan Türkiyə Respublikasının və Rusiya Federasiyasının regional fəaliyyətində Azərbaycanın katalizator kimi çox əhəmiyyətli bir mövqeyə sahib olduğunu bildirmişik. Bu fikirlərimiz əvvəlcə Türkiyə-Azərbaycan-Rusiya (TAR) konsepsiyasında öz əksini tapmışdır. Daha sonra isə Avrasiya İş Adamları Birliyi (AVİB) layihəsilə ideyamızın praktiki istiqamətdə reallaşdırılmasına başlamışıq.

Tərəfimizdən formalaşdırılmış regional əməkdaşlıq platformları təmasda olduğumuz və əməkdaşlıq etdiyimiz qurum və təşkilatlarla paylaşılmış və əhatə dairəsi getdikcə daha da genişlənmişdir. Ötən ilin əvvəllərindən etibarən AVİB layihəsi Türkiyə Sənayeçi və İş Adamları Dərnəyi (TÜSİAD) tərəfindən göstərilən təşəbbüs nəticəsində Qara Dəniz və Xəzər Dənizi İş Adamları Konfederasiyaları Birliyinə (UBCCE) çevrilmişdir.

ATİB təkcə iqtisadi sferalarda deyil, sosial və mədəni sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində də fəaliyyət göstərir. Birliyin təşəbbüsü ilə Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondu yaradılmaqdadır. Hazırda qeydiyyat mərhələsində olan Fondun əsas məqsədləri Azərbaycan və Türkiyə tarixinin araşdırılması və ortaq problemlərin müəyyən edilməsindən, ortaq problemlərin həlli yollarının müəyyən edilməsi və təkliflərin hazırlanmasından, regionda xalqların sülh və əmin-amanlıq mühitində yaşamalarına və iqtisadi inteqrasiyaya mane olan problemlərin həllinə və bu çərçivədə regionun iqtisadi rifahının yüksəlməsinə töhfə verməkdən ibarətdir.

Biz, ATİB olaraq bütün iş adamlarımızı bu Fondun işində yaxından iştirak etməyə dəvət edirik. Çünki Fondun fəaliyyət istiqamətlərindən birini təşkil edəcək Azərbaycan və Türkiyənin ümumi problemi olan erməni məsələsi ilə birlikdə məşğul olaraq onların planlarının həyata keçməsinin qarşısını ala bilərik. Bu mesele hazırda var olan stratejik avantajlarımızı ortadan kaldırmak ve Türkiye ile Azerbaycan'ın arasında var olan sınırları ortadan kaldırarak hem iki ülke bağlantısını kesmek, yanı sıra tüm Türk dilli ülkelerin bağlantılarını keserek, Türkiye'nin jeopolitik önemini ortadan kaldırmak ve enerji kaynaklarına hükmetmek amacına hizmet eden en önemli plan olarak karşımıza çıkmaktadır.

Əgər ermənilərin planı həyata keçsə üzərində yaşadığımız və iş qurduğumuz təbii sərvətlərlə zəngin olan torpaqların bir hissəsi itiriləcək. Odur ki, bu problem Türkiye ile Azerbaycan'ı sahip oldukları tüm bağları ve ilişkilerinin yanı sıra

birbirine kenetleyen başka bir husus olarak birlikte hareket etmek üzere ülkelerimizin birlikte hareket etmesini ve ortak strateji geliştirmesini gerektirir.

Bundan başqa, ermeniler sözde iddialarını tüm dünyaya "Dört T" planı çerçevesinde "Tanıtmak", Türkiye'yi bu asılsız iddiaları "Tanımak" zorunda bırakmak, sözde soykırımdan dolayı "Büyük Ermenistan" rüyasını gerçekleştirmek için sadece Türkiye'den değil, haritada gösterilen bölgelerden "Toprak" almak, kendi isteklerini gerçekleştirmek doğrultusunda "Tazminat" istemektedirler. Bu, onlara adambaşına təxminən 10 min dollar təzminat ödənilməsi deməkdir.

İşte bu noktada Türkiye ve Azerbaycan siyasi ekonomik ve sosyokültürel avantajlarını ortaya koyarak strateji geliştirmelidir. Şöyle ki:

**Strateji:**

- Azerbaycan ve Türkiye'nin uluslararası alanda ortak çıkarları,
- Bölgedeki gelişmeler bağlamında Azerbaycan ve Türkiye'nin konumlarını şekillendiren jeopolitik ortam,
- Bölgede gerçekleştirilen küresel öneme haiz projelerin niteliği,
- Azerbaycan ve Türkiye'nin güvenliğine yönelik ortak tehditler,
- Azerbaycan ve Türkiye arasındaki stratejik gelişme istikametlerindeki yakınlık,
- Her iki devletin diğer ülkelerle eşitlik temelli işbirliğine, uluslararası barış güvenliğinin sağlanmasına yönelik çabaları,
- Her iki ülkenin stratejik gelişme istikametindeki yakınlık,
- Azerbaycan ve Türkiye'nin Avrupa Birliği'ne entegrasyonu,
- Azerbaycan ve Türkiye ile ilgili gerçeklerin uluslararası kamuoyuna ulaştırılması yönündeki faaliyetlerin yoğunlaştırılması ihtiyacı

**Politik:**

- Azerbaycan ve Türkiye'nin ortak ekonomik çıkarları,
- İki ülkenin katılımıyla gerçekleştirilen küresel öneme haiz projeler,
- Ekonomik kalkınma modelleri arasındaki benzerlikler, piyasa ekonomisinin gelişimi ve hukuksal altyapısının iyileştirilmesi, yerli ve yabancı yatırımcıların teşviki yönündeki çabaların birleştirilmesi,
- Yurtdışında faaliyet gösteren Azerbaycanlı ve Türk işadamları arasında ilişkilerin kurulması ve bu işadamlarının bulundukları ülkelerin ekonomik hayatındaki konumlarının pekiştirilmesi,

**Sosyokültürel:**

- Etnik bağlar,
- Aynı dine mensubiyet

- Aynı milli köklere sahip olma,
- Aynı gelenek, görenek ve hayat tarzları

Tüm bu benzerlikler ülkelerimizin birlikteliğini neresinden bakarsanız bakın olmazsa olmaz kılmaktadır.

**Hörmətli həmkarlarım,**

ATİB bundan sonra da qarşısına qoyduğu məqsədlərə uyğun olaraq çalışmaqda davam edəcək və iki qardaş ölkənin qarşılıqlı əlaqələrinin daha da güclənməsi ilə yanaşı, regionda nüfuzlarının artması istiqamətində də səylərinin davam etdirəcək.

Çıxışımı yekunlaşdıraraq, təşkilatçılara təşəkkürümü bildirir və Forumun işinə uğurlar arzu edirəm.